**AZƏRBAYCAN RESPUBLİKASI**
**TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNIVERSİTETİ**

**Ədəbiyyat nəzəriyyəsi kafedrası**

**ASİF HACIYEV**

# ƏDƏBİYYATŞÜNASLIĞIN TARİXİ VƏ METODOLOGİYASI

***MÜHAZİRƏ TEZİSLƏRİ***

**Bakı – 2011**

***Redaktor*:** *prof.* **Ə.Əliyev**

***Rəyçi*:** *prof.* **F.Naciyeva**

**Asif Hacıyev.** Ədəbiyyatşünaslığın tarixi və metodologiyası. Mühazirə tezisləri. – Bakı: Mütərcim, 2011. – 32 səh.

*Tezislər magistrantların ədəbiyyatşünaslıq fənlərini mənimsəməsi üçün zəruri olan tarixi-ədəbi və nəzəri-metodoloji məsələləri öyrənməsi məqsədilə elmi-metodik bazanın yaradılmasını nəzərdə tutur.*

$H\frac{4310020000}{026}$ 34-11

© Asif Hacıyev, 2011

# METODİK GÖSTƏRİŞLƏR

Tezislər fənn proqramı ("Ədəbiyyatşünaslığın tarixi və metodologiyası". Tərtib edən A.A.Hacıyev. TN 28 aprel 2008-ci il tarixli 495 saylı əmri ilə təsdiq edilmişdir) əsasında işlənib və magistrantların ədəbiyyatşünaslıq fənlərini mənimsəməsi və yekun nəticədə dövlət tədris standartının nəzərdə tutduğu peşəkar fəaliyyət növlərini həyata keçirmələri üçün zəruri olan tarixi-ədəbi və nəzəri-metodoloji məsələləri öyrənməsi məqsədilə elmi-metodik bazanın yaradılmasını nəzərdə tutur.

Mühazirələrdə problem məsələlərin seminar dərslərində müzakirəsi və magistrantların mövzuya aid materialı müstəqil mənimsəməsi üçün ümumi nəzəri-metodoloji baza yaradılır. Müasir araşdırmalar əsasında konkret mövzuya aid məsələlər haqqında ümumiləşmiş bilik verilir. Magistrantlar predmetin inkişaf qanunauyğunluqlarını və meyllərini öyrənir, onlara diskussiya formasında fərqli yanaşmalar təqdim olunur.

Seminar dərslərində mühazirələrdən, əsas və əlavə ədəbiyyatdan qazanılmış biliklər praktik şəkildə mənimsənilir.

Seminarlar yaradıcı xarakter daşımalı və yalnız "sorğu" formasında olmamalıdır. Müəllimin rəhbərliyi ilə cari mövzunun aktual məsələləri müzakirə edilməli, magistrantların şəxsi münasibəti dinlənilməli, faktik materialın təhlili aparılmalı, kursun məqsəd və vəzifələri nəzərə alınmalı, imtahan sualları əhatə olunmalıdır.

Semestr ərzində magistrant müntəzəm olaraq ev tapşırıqlarını yerinə yetirir, əsas və əlavə ədəbiyyatı konspektləşdirir, fənnin ayrı-ayrı problem sualları üzrə məlumatlarla çıxış edir.

Magistrant mövzu üzrə xüsusi ədəbiyyatı oxuyub konspektləşdirməli, təhlil üçün material seçərək müstəqil araşdırmalı, seminar dərsləri və imtahan üçün nəzəri və praktik material hazırlamalıdır.

Seminarlarda problem və onun həlli yolları aydın və dəqiq qoyulmalı, məsələnin təhlili düşündürücü olmalı, nəzəri və praktik

material dərindən mənimsənilməli, magistrantların fəallığı və müstəqilliyi rəğbətləndirilməli, mülahizələr dinlənilməlidir.

Seminarlarda sorğu, məlumat, mətn təhlili, referatlardan nəzarət forması kimi istifadə oluna bilər.

Müəllim magistranta ayda iki dəfədən az olmayaraq cari məsləhət verməlidir.

Semestr imtahanla yekunlaşır. İmtahandan əvvəl məsləhət saatı keçirilir, attestasiyaya sistemli biliklərlə gəlmək üçün görülmüş işlərə yekun vurulur.

İmtahanda biliyi qiymətləndirmənin əsas meyarı nəzəri materialın mənimsənilməsi, müstəqil düşüncə və faktları təhlil qabiliyyəti, empirik materialla işləmək bacarığıdır.

İmtahanda magistrant fəaliyyətinin göstəricisi kimi konspektlərini, qeydlərini, müstəqil işinə aid digər materialları təqdim edə bilər.

## MÜHAZİRƏ MƏŞĞƏLƏLƏRİNİN PLANI

### 1. Kursun məqsəd və vəzifələri. Humanitar elmlər sistemində ədəbiyyatşünaslıq

*Fənnin proqramı ədəbiyyat haqqında elmin tarixi inkişafının ən mühüm mərhələlərinin, ədəbiyyatşünaslığın metodoloji və epistemoloji məsələlərinin və metodlarının öyrənilməsini, əsas elmi cərəyan və məktəblərlə tanışlığı, ədəbi tədqiqatın müasir prinsiplərinə və texnologiyasına yiyələnməyi nəzərdə tutur.*

### 2. Ədəbiyyatşünaslıq fəaliyyəti

*Ədəbiyyatşünaslıq fəaliyyətinin ümumi səciyyəsi. Peşəkarlıq meyarları. Ədəbiyyatşünaslıq tədqiqatının prinsipləri və texnikası. Ədəbi mənbə və fakt. Biblioqrafik axtarışların texnikası. Ədəbi əsərin təsviri, təfsiri, qiymətləndirilməsi. Ədəbi əsərin kompleks şəkildə öyrənilməsi.*

### 3. Klassik estetika və ədəbiyyatşünaslığın əsas inkişaf mərhələləri

*Sənətşünaslıq və ədəbiyyatşünaslıq biliklərinin yaranması və formalaşması. Antik ədəbiyyat və estetikanın əsas mərhələləri. Orta əsrlər estetikası. İntibah estetikası və ədəbiyyatşünaslığının ümumi xüsusiyyətləri. Yeni dövr Avropa mədəniyyəti. XVIII əsrin sonlarında və XIX əsrin əvvəllərində Avropada estetika və ədəbiyyatşünaslıq. Azərbaycanda və Şərq ölkələrində klassik ədəbi-estetik fikrin təkamülü.*

### 4. XIX əsr ümumavropa ədəbiyyatşünaslıq məktəbləri

*Mifoloji məktəb. Bioqrafik metod. Mədəni-tarixi məktəb. Antropoloji məktəb. Müqayisəli-tarixi metod (komparativizm). Psixoloji məktəb.*

**5. XIX əsrin sonu – XX əsrin əvvəlində ədəbiyyatşünaslıq məktəbləri**

*Mənəvi-tarixi məktəb. Ədəbiyyatşünaslıqda psixoanaliz. Formalizm. Tarixi poetika. Hermenevtika.*

**6. XX əsr ədəbiyyatşünaslıq məktəbləri**

*Sosioloji ədəbiyyatşünaslıq. Strukturalizm. Semiotika. Post-strukturalizm və dekonstruksiya. Reseptiv tənqid. Neomarksizm. Feminist tənqid. İnformasiya nəzəriyyəsi və ədəbiyyatşünaslıq. Ədəbi təhlilin xüsusi metodları.*

## PRAKTİK MƏŞĞƏLƏLƏRİN MÖVZULARI:

*Ədəbi tədqiqatın ümumi metodologiyası və metodikası*
*Ədəbi tədqiqatın texnikası*
*Ədəbi əsərin təhlili metodologiyası*
*Ədəbi prosesin təhlili metodologiyası.*
*Ədəbi tənqidin metodologiyası.*

# MÜHAZİRƏ TEZİSLƏRİ

## 1. Kursun məqsəd və vəzifələri. Humanitar elmlər sistemində ədəbiyyatşünaslıq

İxtisaslaşmasından asılı olmayaraq ədəbiyyatşünas magistrlərin hazırlanması gələcək mütəxəssislərdə elmi təfəkkürü və tədqiqat vərdişlərini inkişaf etdirən bir sıra ümumi fənlərin öyrənilməsini nəzərdə tutur.

Kursun məqsədi magistrantı seçdiyi ədəbiyyatşünaslıq sahəsi üzrə (ədəbiyyatın nəzəriyyəsi və tarixi, ədəbi tənqid) elmi-tədqiqat fəaliyyətinə hazırlamaqdan ibarətdir.

Fənnin proqramı ədəbiyyat haqqında elmin tarixi inkişafının ən mühüm mərhələlərinin, ədəbiyyatşünaslığın metodoloji problem və metodlarının öyrənilməsini, əsas elmi cərəyan və məktəblərlə tanışlığı, ədəbi təhlilin müasir prinsiplərinə və texnologiyasına yiyələnməyi nəzərdə tutur.

Kursun proqramına aşağıdakı ümumi anlayışlar daxildir: elmlərin sistemi; elmi idrakın forma və metodları; elmi biliklər sistemində ədəbiyyatşünaslıq bilikləri; dünya fəlsəfəsi və estetikası tarixində ədəbiyyatşünaslıq metodologiyasının mənbələri; ədəbiyyatşünaslığın əsas inkişaf mərhələləri və cərəyanları; qnoseologiya və ontologiya məsələləri; bədii-estetik və elmi məlumatın fərqləri; mətnin quruluşu, semantikası və poetikası; ədəbi mənbə və fakt; tekst və kontekst; paradiqmatika və sintaqmatika; ədəbiyyatşünaslıq tədqiqatlarının aksioloji aspektləri; mənbəşünaslıq və kitabxanaşünaslıq; ədəbiyyatşünaslıq əsərinin janrları, quruluşu və peşəkar üslubları; məlumatın toplanmasının və işlənməsinin yeni texnologiyaları; ədəbiyyatşünaslıqda müasir peşəkarlıq anlayışı və meyarları; ədəbiyyatşünaslıq mərkəzləri və orqanları, elmi məktəblər.

Əsas və köməkçi ədəbiyyatşünaslıq fənləri. Metod və metodologiya anlayışları.

Ədəbiyyatşünaslıq ədəbiyyatın dərki kimi. İdrak obyekti və predmeti. İdrak obyekti – gerçəkliyin digər obyektlərdən öz daxili təbiəti, əsas xüsusiyyət və fəaliyyət qanunları ilə mahiyyətcə fərqlənən, keyfiyyətcə müəyyənləşən hadisə və prosesləri məcmusudur. İdrak obyektinin obyektiv gerçəklikdən (universum) fərqi – idrak obyekti gerçəkliyin subyektlə təmasda olan, yəni idrak prosesinə cəlb edilmiş hissəsidir. İdrak predmeti – idrak obyektinin ən əhəmiyyətli xüsusiyyət və əlamətlərinin bütöv məcmusudur. Ədəbiyyatşünaslıq tədqiqatında obyekt və predmetin bilvasitəliliyi, qeyri-müstəqimliyi, estetik qavrayışın özünəməxsusluğu, bədii əsərin obrazlılığı, subyektivliyi.

Ədəbiyyat nəzəriyyəsi və ədəbi təcrübə. Ədəbiyyatşünaslıqda subyektivlik və obyektivliyin tənasübü. Ədəbiyyatşünaslıq təfsiri – ikiqat subyektivləşdirilmiş inikas kimi.

Ədəbiyyatşünaslıqda pozitivizm, metafizik idealizm, prezentizm.

Ədəbiyyatşünaslıq tədqiqatlarının məqsəd və funksiyaları (ictimai, elmi-idraki, tərbiyəvi, maarifçi, proqnostik və s.). Ədəbiyyatşünaslığın digər elmlərlə əlaqəsi. Ədəbiyyatşünaslıq əsərlərinin janr və üslubları.

## 2. Ədəbiyyatşünaslıq fəaliyyəti

Ədəbiyyatşünaslıq fəaliyyətinin ümumi səciyyəsi. Peşəkarlığın meyarları. Ədəbiyyatşünaslıq fəaliyyətinin seçiciliyi və universallığı. Ədəbiyyatşünaslıq tədqiqatının prinsipləri və texnikası. Tədqiqatın məqsəd və vəzifələrinin müəyyən edilməsi. İş planın tərtib edilməsi. Materialın toplanması.

Mənbə seçiminin prinsipləri. Ədəbi mənbə və ədəbi fakt anlayışları. Ədəbi mənbələrin növlərinin yaranması və təkamülü qanunauyğunluqları. Ədəbi mənbələrin subyektiv təbiəti, informativ tutumu, adekvatlığı və tamlığı.

Mənbələrin mövcudluq formaları: nəşr olunmuş və əlyazma, ilkin və sonrakı. Xüsusiyyətinə görə mənbələrin təsnifi: yaradıcı, işgüzar, epistolyar, memuar, sənədli, tənqidi, digər mənbələr.

Mənbələri dəyərləndirmə meyarları: obyektiv dəyəri, həqiqiliyi, əhəmiyyəti, informativliyi, tamlığı. Ədəbi mənbələri elmi tənqidinin, onlardakı məlumatın təhlilinin və işlənməsinin prinsipləri və metodları.

Biblioqrafik axtarışların texnikası. Biblioqrafik vəsaitlərin növləri. Köməkçi nəşr aparatı və biblioqrafik təsvir. Kitabxanalar, ədəbiyyatşünaslıq kafedraları, mərkəzlər və institutlar, nəşrlər.

Mətnşünaslıq. Müəllifin və yazılma dövrünün müəyyənləşməsi, mətn seçimi, mətn versiyalarının müqayisəli təhlili. Ədəbiyyatşünaslıq tədqiqatlarının növ və janrları. Mövzunun aktuallığı və elmi əhəmiyyəti. Ədəbi əsərin təsviri, təfsiri, qiymətləndirilməsi. Ədəbi əsərin kompleks şəkildə öyrənilməsi.

Nəzəri, ədəbi-tarixi, ədəbi-tənqidi təhlil və tədqiqat xüsusiyyətləri. Mətn ədəbi təhlil obyekti kimi.

### *3.* Klassik estetika və ədəbiyyatşünaslığın əsas inkişaf mərhələləri

Sənətşünaslıq və ədəbiyyatşünaslıq biliklərinin yaranması və formalaşması. Providensialist mövqelərdən rasionalist mövqelərə tarixi keçid. Antik ədəbiyyat və estetikanın əsas mərhələləri (Homer eposu, Attik dramaturgiya, Avqust dövrünün lirik poeziyası, ellinizm).

Bizans mədəniyyəti. Orta əsrlər dövrünün estetikası (Avqustin, İoan Damaskin, Akvinli Foma). Orta əsrlər mədəniyyətində sxolastika, reformasiya və kontrreformasiya, Orta əsrlər eposu, kurtuaz ədəbiyyatı, utopizm, karnavallıq, monumentalizm, roman üslubu, qotika.

İntibah estetikası və ədəbiyyatşünaslığının ümumi xüsusiyyətləri.

Yeni dövrün Avropa mədəniyyəti: klassisizm, sentimentalizm, maarifçilik.

XVIII əsrin sonlarında və XIX əsrin əvvəllərində Avropada estetika və ədəbiyyatşünaslıq.

Şərq mədəni ənənələri: çin-konfutsi, hind-buddist, ərəb-müsəlman, türk ənənələri. Azərbaycanda və Şərq ölkələrində klassik ədəbi-estetik fikrin təkamülü. XIX-XX əsrlərdə metodoloji məktəblər.

## 4. XIX əsr ümumavropa ədəbiyyatşünaslıq məktəbləri

### *Mifoloji məktəb*

Mifoloji məktəbin romantizmlə əlaqəsi. Mifologiya və folklor simovlikasına romantik maraq. Mifin ilkin mənbələri, mifin yazılı abidələrlə, xalq poeziyasının ədəbiyyatla əlaqələri məsələsi.

Mifoloji məktəbin folklorşünaslıq və ədəbiyyatşünaslıqda bir cərəyan kimi fəlsəfi əsasları (F.Şellinq, A. və F.Şlegel qardaşları). “Alman mifologiyası” (Y. və V.Qrimm qardaşları (1835).

Mifoloji məktəbdə etimoloji (mifin ilkin mənasının linqvistik cəhətdən yenidən qurulması) və analoji (məzmununa görə oxşar olan miflərin müqayisəsi) cərəyanlar. Paleolinqvistik metod (qədim mifologiyanın bərpasının miflərin məzmununun təbiət qüvvələrinin ilahiləşdirilməsi şəklində izahı ilə həyata keçirilməsi: solyar və meteoroloji nəzəriyyələr, A.Kun və M.Miller); etimoloji nəzəriyyə (F.İ.Buslayev – epik qəhrəmanların mənşəyinin çayların və azmanların yaranması haqqında miflərə müncər edilməsi); analoji (V.Şvars, V.Manxardt), demonoloji (demonik qüvvələr haqqında miflərin önə çəkilməsi) nəzəriyyələrin əhəmiyyəti. N.Afanasyevin əsərləri («Поэтические воззрения славян на природу» – 1866-69-cu illər).

### *Bioqrafik metod*

Bədii yaradıcılığın müəllif ruhunun ifadəsi olması haqqında təsəvvür. Bioqrafik metodun ədəbiyyat və incəsənətə romantik münasibətlə əlaqəsi. Yazıçı şəxsiyyətinin ədəbi yaradıcılığın müəyyənləşdirici məqamı kimi gözdən keçirilməsi. Şəxsiyyətin, bioqrafik əsasın, yazıçının impressionist “portret”inin rolunun güclənməsi.

Ədəbi-bioqrafik təhlilin ilk təcrübələri və BM əsas nümayəndələri: Ş.O.Sent-Böv, İ.Ten, T.Brandes.

Avtobioqrafik ideyaların psixoloji məktəbdə davamı, müəllifin dəruni "Mən"ini impressionist ruhda aşkarlamaq cəhdi. XX əsrin əvvəllərində BM birtərəfliliyindən imtina: dövrün sosial və estetik ideyalarının, ictimai hadisələrin nəzərə alınması.

V.Vinoqradovun, M.Baxtinin, B.Kormanın əsərlərində müəllif problemi.

*Mədəni-tarixi məktəb*

Mədəni-tarixi məktəbin XIX əsrin ikinci yarısında təbiət elmlərinin uğurları, hadisələrin səbəbiyyət və determinizminin rasionalist dərki ilə bağlılığı. İstənilən xalqın, dövrün incəsənətinin və üslubların bərabərhüquqluğunun təsdiqi. Ənənəvi ontologiyanın spekulyativ konsepsiyalarından imtina, cəmiyyətin obyektiv inkişaf qanunlarına pozitivist maraq. Biliyin təcrübi səciyyəsinin təsbiti. "İrq", ətraf mühit və tarixi-ictimai məqamın vəhdətinin ədəbi inkişafın əsas amili kimi təqdimi (İ.Ten. İngilis ədəbiyyatı tarixi).

Mədəni-tarixi məktəbin əsas nümayəndələri – İ.Ten, De Sanktis, Q.Brandes, M.Mendes-i-Pelayo, V.Şerer, N.S.Tixonravov, A.N.Pıpin, N.İ.Starojenko və b.

Mədəni-tarixi məktəbin tarixiliyi, normativlikdən imtina, fövqəlzaman xüsusiyyətlərə maraq; sənətin "düzgün" və "qeyri-düzgün" formalara bölünməsi. İncəsənət və ədəbiyyatın xalq "ruhu"nun müxtəlif tarixi məqamlarda üzvi təcəssümü kimi qavrayışı. Mədəni tarixi məktəbin məhdudluğu: ifrat pozitivizm, sənət əsərinə ictimai sənəd kimi baxılması, bədiiliyin kifayət qədər qiymətləndirilməməsi, dialektika və estetikanın rolunun azaldılması.

*Antropoloji məktəb*

Öz klassik məzmununda XIX əsrin ikinci yarısında Avropa etnoqrafiya və folklorşünaslığında formalaşmış antropoloji məktə-

bin əsas prinsipləri – bəşər mədəniyyətinin vəhdəti, müxtəlif xalqların mədəni tərəqqisinin irqi, regional fərqlərdən asılı olmayaraq eyni qanunauyğunluğa tabe olması, ayrı-ayrı xalqların mədəniyyətindəki müəyyən müxtəlifliyin çeşidli tarixi-sosial təkamül pillələri ilə bağlılığı olmuşdur. Hələ dini baxışlarda, orta əsrlərdə və İntibah məfkurəsində izlənən antropoloji ideyalar yeni dövrdə, xüsusən, maarifçilikdən başlayaraq, müasirliyə qədər inkişaf etməkdədir.

Russo, Volter, Ferqüssonun bəşərin inkişaf mərhələləri haqqında maarifçi fikirləri ilə yanaşı, antropoloji tədqiqatlarda təkamülçülük və pozitivizm (L.Morqan, E.Taylor, Ş.Leturio), sosiolojilik (E.Dürkgeym, M.Moss), biolojilik (H.Cemberlen, V.de Ləpüj), psixolojilik (Z.Freyd, K.Q.Yunq, Q.Roheym) kimi meyllər formalaşmışdır. Mifologiya, folklorşünaslıq baxımından C.Frezer və Van Gennepin antropoloji tədqiqatları xüsusi qeyd oluna bilər.

Avrasiyaçılıqda antropoloji məsələlərin coğrafi amillə bağlılığı (N.Trubetskoy, P.Savitski, Q.Floroviski, P.Suvçinski, L.Qumilyov).

Müasir dövrdə antropoloji tədqiqatlarda qapalı mədəniyyətlər konsepsiyası (Şpenqler, Toynbi, Levi-Bryul, Lerua-Quran), funksionalizm (Redklif-Braun), strukturalizm (Klod Levi-Stros), etnopsixoloji (Sepir, Marqaret Mid), eləcə də çoxxətli və polikultur evolyusionizm, mədəni materializm, riyaziləşdirmə, koqnitiv etnoqrafiya kimi meyllər izlənilir. Müasir antropologiyada postmodernizm, kontekstualizm, destruktivizm, feminizm.

*Müqayisəli-tarixi metod (komparativizm)*

Müqayisəli tarixi metodun XIX əsrin ikinci yarısında beynəlxalq ədəbi əlaqələrin güclənməsindən asılılığı. Müqayisəli poetika məsələlərinə maraq.

T.Benfeyin miqrasiya nəzəriyyəsi. Tarixi nəzəriyyə – süjetlərin oxşarlığının xalqların ünsiyyəti ilə izah edilməsi. Psixoloji nəzəriyyə – süjetlərin oxşarlığı insan psixikasının vəhdətinin təzahürü kimi. Analitik nəzəriyyə (E.Taylor) – universal süjetlərin ibtidai həyat şəraitinin ümumiliyindən asılılığı. Antropoloji nəzəriyyə

(A.Lanq) – süjetlərin insanın təbii xislətinin təzahürü kimi öz-özündən yaranması konsepsiyası. Genetik, tipoloji, kontakt ədəbi əlaqələr, mənimsənilmiş ədəbiyyatda "cavab" təsir və cərəyanlar.

"Şərq – Qərb" məsələsi tarixi-müqayisəli aspektdə.

Tarixi-funksional ədəbiyyatşünaslıq. Tərcüməşünaslıq məsələləri. Müqayisəli-tipoloji metod.

"Ümumdünya ədəbiyyatı" konsepsiyası (İ.V.Höte). A.Veselovski, V.Jirmunski, N.Konrad və başqalarının əsərləri.

Azərbaycan ədəbiyyatşünaslığında komparativizmin metodoloji-nəzəri məsələləri və təcrübəsi. Prof. K.Abdullayevin tədqiqatları. BSU-nun komparativistik üzrə fəaliyyəti ("Müqayisəli ədəbiyyat" ənənəvi konfransları, "Kitabi Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"nin müqayisəli təhlili üzrə layihə, "Türk-slavyan əlaqələri" elmi-tədqiqat laboratoriyasının fəaliyyəti və s.).

*Psixoloji məktəb*

XIX əsrin son qərinəsində sosiologiya, fəlsəfə, estetikada psixologizmə dönüş. Yaradıcılığın daxili psixoloji tərəfinə marağın güclənməsi, incəsənət və ədəbiyyata sənətkarın obrazlarda refleksiyası və hisslərinin sublimasiyası kimi münasibət. İncəsənətdə insanın fikir, hiss, əhvalının ifadəsi (kənar aləmdən təəssüratın və öz daxili yaşantılarının). Əsər yaradıcı şəxsin qəlbinin modeli kimi. Əsərin sənətkar şəxsiyyətinin özünəməxsusluğu ilə müəyyənləşməsi ideyası, yaşantıların və psixoloji tiplərin xüsusiyyəti ("ifadə şairləri", "təcəssüm şairləri", müşahidəçi sənətkarlar, eksperimentçi sənətkarlar).

Əsərin qavranılması – oxucunun öz təcrübəsindən və şəxsi assosiasiyalarından asılı olaraq, ani şəkildə müəyyən assosiativ mənalar yaratması prosesi kimi. Müəllifin xidməti – məzmunun tutumunda deyil, obrazın çevikliyində, daxili formanın rəngarəng mənalar törətmək siqlətindədir (A.A.Potebnya). Psixoloji məktəbdə əsərin gerçəkliklə bağlılığına diqqətin azalması.

## 5. XIX əsrin sonu – XX əsrin əvvəlində ədəbiyyatşünaslıq məktəbləri

*Mənəvi-tarixi məktəb*

Almaniyada XIX əsrin sonu – XX əsrin əvvəllərində alman romantik estetikası və "həyat fəlsəfəsi" (V.Diltey) ideyalarının əsasında, mədəni-tarixi məktəbə və filoloji pozitivizmə (F.Ştrix, Q.Kerer) reaksiya kimi meydana gəlmişdir.

Əsas məqsəd ədəbiyyat tarixinin mənəvi və psixoloji təfsirlərinin sintezidir. Mənəvi-tarixi məktəbin konseptual əsası – dahilərin qüdrəti və nüfuzu sayəsində zaman və millət arasında yaranan vəhdət ideyası: tarixi və psixolojinin vəhdəti sənətkarın yaşantılarında aşkarlanır və poetik forma vasitəsilə obyektivləşir. Beləliklə, mənəvi-ruhsal aləm və həqiqət yalnız oxucuya deyil, yaradıcı sənətkara da açılır. Ruhun dərinliyi yalnız dildə ifadə olunduğundan, xalqın mənəvi-tarixi varlığı ədəbiyyatda daha tam qavranılır. Buna görə də, ədəbiyyatşünaslığın əsas vəzifəsi bədiiyyatın izahı deyil, anlaşılmasıdır. Mənəvi-tarixi məktəbdə əsas metodlar isə – mətnin dərinliyinə varmaq və təfsirdir. Təxəyyül və təəssürat yaradıcılıq prosesinin ünsürləri kimi, subyekt (müəllif) və obyektin (dövrün) vəhdəti. Mənəvi-tarixi məktəbin əsas nümayəndələri: V.Diltey, R.Unger, X.Korf, F.Hundolf.

*Ədəbiyyatşünaslıqda psixoanaliz*

XX əsrin ən populyar mövzularından olan psixoanaliz ədəbiyyatşünaslıq və bədii yaradıcılıqda da aktual məsələlərdən biridir. Psixoanaliz baxımından ədəbi-bədii əsər gerçəklik tərəfindən sıxışdırılmış və fantaziyalar aləmində kompensasiyasını tapan ilkin psixoloji impuls və intibaların simvolik ifadəsi hesab olunur. Yaradıcılıq prosesinin əsas ünsürü kimi, kollektiv təhtəlşüur tərəfindən müəyyənləşən sabit süjetlər öyrənilir, müəllif qəhrəmanla eyniləşdirilir, şüuraltı istəklərə, şəxsiyyətin sosial və mənəvi qadağalarla faciəvi toqquşmasına diqqət yetirilir. Psixoanalizin banilərindən olan

Z.Freydin "Şair və fantaziya", "Dostoyeviski və ata qabilliyi" kimi əsərlərində psixoanalitik təhlillə ilkin motivlər, o cümlədən – ata qatilliyi motivi aşkarlanaraq təhtəlşüurun mühüm ünsürü kimi təqdim olunur (Sofoklun "Çar Edip", Şekspirin "Hamlet", Dostoyevskinin "Karamazov qardaşları" bu qəbildəndir).

Psixoanalizin əsas anlayışları – təhtəlşüur və təhtəlşüur arxetipləri. Mətnin psixoanalitik təfsirində miflərin yeri: arxetiplərin saf ifadə olunduğu mifologiya psixoanalitik təhlilin əsas obyekti kimi. Miflərdə dərk olunmuş "mən"lik şüuru hələ qabarıqlaşmadığından və ya kollektivin təhtəlşüurunda əridiyindən, psixoanalitik təhlilə əngəl olan estetik meyarlar aşkarlanmır. Bu isə, kollektiv təhtəlşüuru və dəyişməz obrazlı formullar olan arxetipləri səhih araşdırmağa imkan verir. Beləliklə, şüurdankənar simvolika və ümumi fövqəltarixi fenomenlər, eləcə də simvolik dil məsələləri ortaya çıxır.

K.Q.Yunqun arxetiplər və kollektiv təhtəlşüur təlimi. Arxetiplər obrazlı sabit formullar kimi. Psixoanalitik araşdırmalarda təbiət qüvvələrinin simvolikası (Başlyar), psixoanalizin dilçilik və semiotik aspekti (Lakan), şizoanaliz (Delez), feminizm və psixoanaliz (Mitçel), dilin paleosimvolik strukturu, dil səhvləri və pozuntuları kimi məsələlər də aktuallaşır.

Psixoanalizin realist ədəbiyyatla yanaşı, dadaizm, sürrealizm, ekspressionizm və s. araşdırılmasında xüsusi rolu. Bu təlimin ekzistensial səpkisi isə insanın gerçək mövcudluğu və azadlığı, ruhsal özgürlüyü kimi anlayışlara bağlanır. Struktural baxımdan isə psixoanaliz mədəniyyətin fövqəlfərd mexanizmini, təhtəlşüur sferasında şüurdan asılı olmadan fəaliyyət göstərən işarəvi sistemləri öyrənməyə imkan verir. Bəzən təhtəlşüur psixi intibaların primitiv bioloji instinktlərə müncər edilməsi isə bu təlimin vulqarlaşdırılmasına səbəb olur.

Təhtəlşüura yeni yanaşmalar (J.Lakan, C.Mitçel və b.)

### *Formalizm*

Linqvistika və ədəbiyyatşünaslıqda formal metod. Poetik dilin öyrənilməsi cəmiyyəti (OPOYAZ), Moskva linqvistik dərnəyi, Pra-

qa linqvistik dərnəyi. İ.A.Boduen de Kurtene, H.Velflinq, V.Dibelius, N. Trubetskoy, V.Şklovski, Y.Tınyanov, B.Tomaşevski.

Formanın ixtiyari inkişafı və mətnyaradıcı rolu. Əsər onu təşkil edən üsulların cəmi (V.Şklovski), funksional vahidlər sistemi kimi.

Formanın mənalılığı, kanonik və qeyri-kanonik formalar, qavrayış avtomatizminin dağılması.

Rus formal məktəbinin əsas istiqamətləri: sehrli nağılın morfologiyası (V.Y.Propp), poetik semantika (R.Yakobson), nəsrin kompozisiyası (V.Şklovski) və s.

Formal təhlil prinsiplərindən struktur poetikada, informasiya nəzəriyyəsində, semiotikada, maşın tərcüməsində istifadə.

*Tarixi poetika*

Tarixi poetika ədəbiyyat nəzəriyyəsi və tarixinin sintezi kimi. Ədəbi prosesin tipoloji qanunauyğunluqlarının və genetik asılılıqlarının, əsas invariantların və onların konkret mətnlərdə təzahürlərinin, ənənənin və fərdi yaradıcılığın əlaqələrinin və ədəbiyyatın perspektiv inkişaf yollarının öyrənilməsi. Sürəkli yaradıcılıq amillərinin və ani faktların tənasübünün, ənənə və fərdi yaradıcılığın tədqiqi, "poeziyanın mahiyyətinin onun tarixindən aşkarlanması" (A.Veselovski. Tarixi poetika).

*Hermenevtika*

Mətnin təfsiri nəzəriyyəsi və metodu; obyektiv-tarixi və subyektiv-müəllif amillərinə əsaslanaraq sakral və bədii mətnlərin dərin mənalarının üzə çıxarılması.

Ellinist hermenevtika klassik mətnlərin təfsiri və orakulların kəlamlarını izah sənəti kimi. Hermenevtikaya etimoloji yanaşma (Hermes – "allahların xəbərlərini ölərilərə çatdıran"). Orta əsrlər və İntibah dövründə hermenevtika – sakral mətnlərin, Əhdi-ətiq və Əhdi-cədidin təfsiri (eqzetika).

İctimai-humanitar mətnlərin tədqiqi və təfsiri üsulu kimi hermenevtikanın fəlsəfi, kulturoloji, ədəbiyyatşünaslıq aspektləri.

Hermenevtika obyektinin tematik və məna sərhədlərinin genişlənməsi.

Hermenevtika əsəri "yaşama", ənənəvi təhlil metodlarına, oxucuya və müəllifin özünə əlçatmaz olan dərin mənaları anlama sənəti kimi; "sərbəst" hermenevtika (Şleyermaxer). Hermenevtikada mənəvi-tarixi istiqamət (Diltey): keçmiş dövrlərin mədəniyyətinin ruhunun bərpası və anlanılması, ictimai-tarixi proseslərin mahiyyətinin və bunun dərkinin subyektiv səciyyəsi, cəmiyyətşünaslıqdakı "anlama"nın təbiətşünaslıqdakı "izah"dan fərqi (hermenevtik "anlama"da abstraktlaşdırma və tipolojiləşdirmənin yoxluğu).

Hermenevtika XX əsr fəlsəfəsində metodoloji prosedur kimi: ekzistensializmdə hermenevtik yanaşma (Haydegger), fəlsəfi hermenevtika (Qadamer, Habermas). Müasir hermenevtikanın ontoloji (anlanıla bilən varlıq dil deməkdir), sosial (anlama ictimai həyatın gerçəkləşməsi forması kimi), ideoloji ("ideologiyanın tənqidi": dilin təhlili əsasında hökmranlıq və sosial hakimiyyət üsullarının aşkarlanması) aspektləri.

Dil hermenevtik təhlilin əsası kimi. Anlama və yaşama problemi. Ritorika və hermenevtika. Mənanın fenomenoloji konsepsiyası (Qusserlya), dil və dünya baxışı, mövcudluq və dil (Haydegger).

Müasir hermenevtikanın sinkretikliyi və subyektivliyi, obyektiv "anlama" və subyektiv təfsirin tənasübü, mətnə yeni təfsirlərin müncər edilməsi. Müasir ədəbiyyatşünaslıqda hermenevtik təhlilinin rolu.

## 6. XX əsr ədəbiyyatşünaslıq məktəbləri

### *Sosioloji ədəbiyyatşünaslıq*

Ədəbiyyatın sosial proseslərin və gerçək hadisələrin realist inikası kimi öyrənilməsi. Tipikləşdirmə, sinfilik, partiyalılıq sosioloji ədəbiyyatşünaslığın əsas kateqoriyaları kimi. Ədəbiyyat və incəsənətin marksist-leninistcəsinə dərki, "tipik şəraitdə tipik xarakterlər" tezisi. İnqilabi mübarizə və ədəbiyyat. Ədəbiyyat və ədəbiyyatşünaslıqda tendensiyalılıq. Məzmunun önə çəkilməsi. Sosialist

realizminin nəzəriyyəsi və praktikası. Vulqar sosiologizm. Digər ədəbiyyatşünaslıq məktəblərində sosial təhlil elementləri (müqayisəli-tarixi, funksional, aksioloji və digər tədqiqat metodları).

*Strukturalizm*

Strukturalizm keçmiş və müasir mədəniyyətin əsasında duran təfəkkür strukturlarının aşkarlanması, təsviri və izahına yönəlmiş humanitar tədqiqat metodudur. Bu metodun mahiyyəti təfəkkür strukturlarının universallığı və bu zəmində də mədəniyyətlərin bərabərliyidir. Fransız etnoloqu Klod Levi-Strosun struktur antropologiyaya və mifologiyaya dair tədqiqatlarında təsbitlədiyi mühüm prinsiplərdən biri də ibtidai və müasir mədəniyyətlərin özəyini təşkil edən idraki-struktur mexanizmlərinin mahiyyətcə eyniyyəti, fərqlərin yalnız zahiri predmet və material səviyyəsində olmasıdır. Bununla da strukturalizm bütün dövrlərə və regionlara xas mədəniyyətlərin təməlində eyni təfəkkür strukturlarının durduğunu təsdiqləyərək, avropasentrizmdən imtina edən ilk metodoloji sistemlərdən olmuşdur.

Struktur tədqiqatın üst qat, struktur və variativ təhlil səviyyələri, eləcə də dərin struktur, invariant və "dil" qatlarında düzənləmə – bərpa mərhələləri mövcuddur.

"Dil" səviyyəsi ilk növbədə mifdə axtarılır. Bunun da səbəbi kollektiv-təhtəlşüur, invariant struktur olan mifin universal təfəkkür mexanizmlərini saf şəkildə daşıması, bu mexanizmlərin müxtəlif variantlarda (nağıl, mahnı, mərasim, ədəbiyyat və s.) aşkarlanmasıdır. Buna görə də müxtəlif variasiyalarda üzə çıxan mifoloji temaları araşdırmaqla mədəniyyətin invariant kodu bərpa edilir. Strukturalistlər məhz bu baxımdan mifin özünə xas mətnlərin mövcudluğuna şübhə edir və məlumatın çatdırılmasına xidmət edən invariant kodların müxtəlif formalarda gerçəkləşdiyini göstərirlər: mif nağılda "danışıla", ritual mahnıda "oxuna", dramatik hərəkətdə təsvir oluna, mərasimdə "yeyilə", qohumluq münasibətlərində təzahür edə, kosmik reallıqlara və təbiət hadisələrinə müncər edilə bilər və s.

Struktur tədqiqatlarda sistem yaradan elementlərin əlaqəsi şaquli ox – sintaqmatika və üfqi ox – paradiqmatika üzrə araşdırılır. Transformasiya mexanizmləri, invariantdan varianta keçid qanunauyğunluqları öyrənilir. Elementlər məcmusunun əhəmiyyəti onların statik vəziyyətində deyil, qarşılıqlı əlaqəsində hesab edilir, elementlər arasında münasibətlər elementlərdən vacib sayılır. Nəticə etibarilə, bədii mətn poetik tamı yaradan münasibətlər sistemi kimi tədqiq olunur.

Strukturalizmin mühüm bir prinsipi elementlərin alternativliyi, mifdə (mədəniyyət və s.) struktur münasibətlərin oppozitiv ikiliyidir (binarlıq): doğma – yad, kişi – qadın, çiy – bişmiş, təbiət – mədəniyyət. Bu təzad, cüt oppozisiyalar aşağıdakı qeyri-şüuri məntiqi əməliyyatlarla həll olunur:

1) brikolaj (yayınma) – təzaddan yan keçilməsi (adın çəkilməsinə qadağa);

2) metaforikləşdirmə (adın assosiativ kəlməylə əvəzlənməsi);

3) mediasiya (proqressiv vasitəçilik – binar təzadın tam həllə nail olana qədər daha zəif ziddiyyətlərlə əvəzlənməsi: həyat / ölüm ≈ oyaqlıq / yuxu...

Metodoloji qaynaqları F. de Sössür, İ.A.Boduen de Kurtene yaradıcılığında, Praqa, Kopenhagen, Amerika, ingilis dilçilik məktəblərində olan strukturalizm semiotika (Ç.Pirs, Ç.Morris), məntiq (B.Rassel, R.Karnap), poetika (A.N.Kolmoqorov, Y.Lotman, P.Bart) və başqa sahələrdə geniş tətbiq olunub.

Strukturalizmin görkəmli nümayəndələrindən olan Rolan Bartın tədqiqatlarında bədii mətn tarixi mühitə çıxışı olmayan müstəqil tamlıq, "qapalı struktur" kimi araşdırılır. Mətni tədqiq üçün immanent (qapalı) təhlildən istifadə olunur – təkamül edən hadisədə qonşularından təcridlənən müəyyən qat ("kəsik") ayrılır; daxili struktur iyerarxik (asılı) təşkil olunmuş qatlar sistemi kimi öyrənilir. Bədii mətn özü-özünə üzvi inkişaf edən (gəlişən) sistem kimi götürülür. Elementlər yalnız sistem daxilində əhəmiyyət daşıyır. Bədii mətnin tədqiqi bütövlükdə poetik kodun, ənənəvi semantik cütlərə (ikili əksliklərə) müncər edilən universal modellərin aşkarlanması və izahına yönəlir. Predmeti, prosesi, sistemi ayrılıqda seçilən struktur

təhlil və struktur poetikanın əsas anlayışları ötürücü / qəbul edən, məlumat / kod, işarə / məna, nitq / dil, mətn / kontekst və sairədir.

*Semiotika*

Semiotika – işarələr və işarə sistemləri haqqında elm (F. de Sössür, Ç.Pirs, A.Qreymas, R.Bart və b.).

Mətnin simvolların köməyilə ünsiyyət (məlumat mübadiləsi) kimi gözdən keçirilməsi. Ünsiyyət növləri: heyvanlar arasında, insanlar arasında, insan və maşın arasında. Ünsiyyət dilləri: 1) təbii dillər, 2) süni dillər (insan və maşın), 3) metadillər (təbii və ikinci dillərin təsviri üçün), 4) ikinci dillər (mədəniyyətin, mifin, ritualın, etiketin, sosiumun, incəsənətin və s.).

Struktur dilçilik və semiologiya. Mədəniyyətin semiologiyası. Kommunikasiya və diskurs nəzəriyyəsi. Müəllif problemi. Yazı və mətn, dil kompetentliyi.

Mətnin zamandankənar və zamanda öyrənilməsi: sinxroniya və diaxroniya. Dil fövqəlzaman norma və qaydaların iyerarxik sistemi kimi. Paradiqmatika (mətn yaratmaq üçün mənaca fərqli formaların seçilməsi), sintaqmatika (ifadədə fərqli səviyyə elementlərinin qonşuluğu).

Semiotik dillərin özünəməxsusluğu (balet dili, sirk dili, nəsr, poeziya, dram, roman dili və s.); paradiqmatika – metafora – poeziya // sintaqmatika – metonimiya – nəsr; romantizm – poetik struktur – paradiqmatika // realizm – təhkiyə – sintaqmatika.

Semiotik təhlilin səviyyələri: məzmun planı (təsviri ikonik işarələr arasında motivləşmiş əlaqələr sisteminin müəyyənləşməsi), ifadə planı (şərti işarələr arasında motivləşdirilməmiş münasibətlərin öyrənilməsi); semiotik təhlilin mərhələləri: semantika – işarənin qeyri-işarəvi aləmə münasibəti; sintaqmatika (sintaktika) – işarənin digər işarəyə münasibəti; praqmatika – işarənin onu istifadə edən kollektivə münasibəti.

*Poststrukturalizm və dekonstruksiya*

Poststrukturalizm fəlsəfi fikir cərəyanı kimi totalitarizm və totalitar şüurun tədqiqatı, onların struktur və dillə əlaqələri, totallığın bütün növləriylə mübarizə üzərində qurulub. Əsas tezisi "dünya (şüur) mətn kimi" olan poststrukturalist təfəkkür tərzinin yaradıcıları məşhur filosof və tədqiqatçılar Derrida, Fuko, Delez, Bart və başqalarıdır.

Poststrukturalizm ənənəvi metodoloji yanaşmaların inkarı əsasında yaranıb: poststrukturalistlər dekonstruksiyaya ənənəvi münasibətdən, yəni istənilən institusiyanın, iyerarxiya və dəyərlərin nihilistcəsinə tənqidindən və bu metodun oxunuşun texniki üsullarına müncər edilməsindən imtina etmişlər. Beləliklə, poststrukturalistlər ədəbiyyatın geniş sosial-mədəni kontekstin bir hissəsi kimi dərkini təsbitləmişlər. Mətnin təfsiri xeyli mürəkkəbləşmiş, əsərdə müxtəlif növ məntiqi və formal pozuntularda təzahür edən, aşkar olmayan məna və dəyərlərin axtarışı önə çıxmışdır. Poststrukturalizmdə və ondan ayrılmaz olan dekonstruksiyada sorğulayıcı və təsdiqləyici tərəflər önə çıxarılmış, əsərin mənşəyi, tekstuallığın mahiyyəti, ədəbiyyatın sərhədləri kimi məsələlər aktuallaşmışdır.

Postrukturalizmin fəlsəfi-ədəbi əsasını bədii mətnin oxucunun sərbəst təfsirinə imkan verən, mənşəyi məlum olmayan və arxasında hər hansı həqiqət durmayan işarələr sistemi olması təşkil edir. Beləliklə, əsərin ya müəllif niyyətini labüd pozması, ya da ondan kənara çıxması, yəni məna mərkəzi anlayışının fiksiya olması fikri meydana çıxır. Hər bir mətn öz təbiətinə görə müəyyən mənaya maliklik iddiasını aşır və oxucu mətn əsasında yeni mənaların yaradılmasından ibarət azad oyuna qoşulur.

Poststrukturalizmdə diskurs, epistema, intertekstuallıq anlayışları yeni mənada aşkarlanır, klassik diskurs anlamı tənqid olunur, "müəllifin ölümü" (Bart), "qrammatologiya" (Derrida), "biliyin hökmü... dil və hakimiyyət" (Fuko) kimi anlayışlar önə çıxır. Mətnin və onun dərkinin dövrün intellektual və mədəni mühitindən asılılığını təsbitləyən poststrukturalizmdə siyasi təhtəlşüurun əsərdə təzahürü, oxunmanın ritorik səpgisi, hərfi və fiqural oxunuş, əsərlə oxucu qavrayışı arasında konflikt kimi məsələlər tədqiq olunur.

*Reseptiv tənqid*

Marksist və formalist tənqid arasında təzaddan çıxmaq cəhdi olan reseptiv tənqid bədii əsərin qavranılmasının tarixi müəyyənliyi prinsipi, diqqətin müəllifdən əsərin yaradılması və oxucu tərəfindən mənimsənilməsinin dialektikasına yönəldilməsi ilə seçilir. Burada "oxucu gözləntiləri üfüqü" anlayışı ortaya çıxır: "oxucu gözləntiləri anlayışını istifadə etməklə, psixologiyaya yuvarlanmadan oxucunun ədəbi təcrübəsini təsvir etmək olar: hər bir əsər üçün oxucu gözləntiləri əsər meydana çıxdığı anda janrın əvvəlki dərkindən, artıq məlum əsərlərin forma və mövzusundan, poetik və adi dil arasından təzaddan törəyir" (Hans Robert Yauss).

Əsərin qavranılmasının tarixiliyi, diqqətin müəllifdən mətn yaratma prosesinə və oxucuya yönəldilməsi. Reseptiv tənqiddə ədəbiyyat tarixi əsərin dəyərləndirilməsinin mühüm tərkib hissəsi, müasir təfsirə təsir edən tarixi amillərin dərki vasitəsi hesab olunur. Elitar sənət konsepsiyalarından imtina edərək, ədəbiyyatın həyatverici qüvvəsi, sənətdən gələn estetik yaşantılar, həzz qabardılır. "Yeni tənqid"ə xas obyektivləşdirmədən imtina edən reseptiv tənqidin diqqəti əsərin oxunma prosesində aktuallaşan potensial imkanlarına yönəlir.

Oxucu konkret-tarixi şəxsiyyət deyil, ideal abstraksiya kimi qəbul edilir. Onun rolu öz təxəyyülü, müəlliflə ortaq yaradıcılığı hesabına mətndəki boşluqları doldurmaqda aşkarlanır: "Ədəbi əsərin təhlili yalnız əsər mətnini deyil, eyni dərəcədə bizim ona cavab hərəkətlərimizi də nəzərə almalıdır" (Volfqanq İzer).

Qavrayış məsələləri. Əsərin qavrayışı subyektiv olmaqla bərabər, bədii mətnin oxunuşu da fərqli səviyyələrdə gerçəkləşir: sadəlövh oxunuş, təmərküzləşmiş oxunuş, dərin oxunuş. Digər tərəfdən, qavrayış emosional və rasional, dərk isə qiymətləndirici və dəyərləndirici ola bilər.

*Neomarksizm*

Keçən əsrin 70-ci illərindən başlayaraq, Amerika və Avropa ədəbiyyatşünaslığında neomarksist ədəbi-tənqid formalaşmağa başla-

mışdır. Bu cərəyanın ilk nümunələri – amerikalı marksist tənqidçi Frederik Ceymisonun “Marksizm və forma” (1971), “Aqressivlik pritçaları: Uindem Luis, modernist faşist kimi” (1979), “Siyasi təhtəlşüur: təhkiyə sosial-rəmzi akt kimi” (1981), ingilis tənqidçisi Terri İqltonun “Qovulmuşlar və emiqrantlar” (1970), “Marksizm və ədəbi tənqid” (1976) və digər bu kimi əsərlərdir.

Neomarksist tənqiddə ədəbi formaların tarixi və kapitalizm cəmiyyətinin inkişaf mərhələləri arasında əlaqə izlənilir, eyni zamanda, marksizmin aparıcı rolu ilə bərabər, strukturalizmin, psixoanalizin, poststrukturalizmin, postmodernizmin təsiri aşkarlanır.

Ədəbi əsərdə “siyasi təhtəlşüurun”, kapitalizmin “burjua subyektivliyinin şizofrenik iflasının” (F.Ceymison) inikası axtarılır. Bazar kapitalizmi ilə realizm və inhisarçı imperializmlə modernizm arasında, kapitalist inkişafın hazırkı fazası ilə isə postmodernizm arasında uyğunluq tapılır.

Müasir ingilis tənqidçiləri Terri İqlton, Reymond Uilyams, fransız marksisti Lui Altyusserin əsərləri neomarksizmi anlamq baxımından səciyyəvidir. Lakin klassik marksist-leninçi tənqiddən fərqli olaraq, neomarksizm ədəbiyyatın bu və ya digər formasiyanın ideologiyasına müncər edilməsindən imtina edir. Bədii əsərlərin oxunuşu ilə ideologiyanın dərki mümkünlüyünə skeptik münasibət aşkarlanır. Formal struktur kateqoriyaları və mətnin müstəqim qavrayışı, müəllif və intertekstin sintezi fikri irəli sürülür. Diqqət əsər mətninin özlüyündə təhlilindən əsəri doğurmuş mədəniyyət və ideologiyanın ümumiləşdirilməsinə keçirilir. Neomarksizmdə postmodernizmə xas müddəa – postmodernistlər tərəfindən əsərin əmtəə mahiyyətinin qəbul edilməsi tənqid olunur, belə münasibət incəsənəti əşyalaşdırmaq, kapitalizm qarşısında kapitulyasiya hesab edilir.

### *Feminist tənqid*

XX əsrin 70-80-ci illərində təşəkkül tapmış feminist tənqidin və ədəbiyyatşünaslığın əsas problemi xüsusi qadın ədəbiyyatı, “qadın yazısı”dır. Feminizm ədəbiyyat nəzəriyyəçilərinin fikrincə, bu

ədəbiyyat “patriarxal”, kanonik “kişi” ədəbiyyatından öz məna xüsusiyyətləri və poetikasına görə fərqlənir.

Feminist ədəbiyyatşünaslıq iki faktı təsbitləyir: xüsusi qadın mədəniyyətinin mövcudluğunu və qadının tənqidi intuisiyasının qadın əsərini özünəməxsus təfsir hüququnu. “Kişi” tənqidindəki sərt konseptuallaşdırılmış prinsipə və metod kultuna rəğmən, feminizm mülahizə hüququnu adi oxucuya verir. Qadın estetikasının bir çox nümayəndələrinin fikrincə, mədəniyyət tarixi – patriarxat tərəfindən qadın mədəniyyətinin əzilməsi tarixidir. Hətta özünəməxsus qadın “milləti”, “diasporası” fərziyyəsi irəli sürülür: “əsarəti altında qadınların qurtulub yaşaya bildiyi “kişi” mədəniyyəti içində sanki ayrı-ayrı diasporlar kimi mövcud olan ümumi qadın mədəniyyəti ideyası son illərin feminist tənqidi tərəfindən ürkək şəkildə, lakin daim səsləndirilib. Kişilərdən asılılığımız (ev, ailə, qəbilə asılılığı) nəticəsində parçalanmış, patronaj və institusiyalar aləmində yaşayan bizlər əvvəlcə bu parçalanmanı görüb, ondan qurtulmalıydıq, sonra isə bir planetin qadınları kimi bizi nəyin birləşdirdiyini araşdırmağa başlamalıydıq” (A.Riç).

Feminist tənqiddə qadın düşüncəsi və dünya qavrayışını əks etdirən özünəməxsus anlayışlar sistemi işlənmiş, “mürəkkəb, tabeedici, xətti təsnifat və parçalama üslubunun əvəzinə diskursiv, birləşdirici, şərti üslub” formalaşmışdır. (C.P.Stenli, S.C.Vulf).

Lakin bir çox feminist tədqiqatçıların qeyd etdiyi kimi, qadın estetikasında bəzən qadın biologiyası qabardılmış, qadın yazısının estetik özünəməxsusluğu və muxtarlığı mütləqləşdirilmişdir. İngilis-amerikan feminist tənqidinin banilərindən biri olan E.Şouolter qadın əsərlərini feminist tənqidin mərkəzi obyekti kimi təsdiqləməklə və qadın ədəbi ənənəsindən doğan qadın yaradıcılığı nəzəriyyəsinin yaradılmasına çağırmaqla yanaşı, patriarxal təfəkkürdən kənar olan müəyyən xüsusi qadın şüuru və ya mədəniyyəti haqqında feminist fantaziyaları inkar edir. Onun fikrincə, “nə yaradıcılıq, nə tənqid hakim mədəniyyətdən kənar mövcud ola bilər”.

Feminist estetikada özlüyündə feminist ədəbiyyatşünaslıqdan başqa - gender nəzəriyyəsi, gino-tənqid, androgin poetika, essensializm və s. kimi tədqiqat istiqamətləri formalaşmışdır. Feminist tən-

qidin əsas nümayəndələri: E.Şouolter, Y.Kristeva, C.K.Outs, L.İriqare, M.Vittiq, C.Lidoff, C.Qardiner, E.Uoker, S.Gilbert, B.Conson, C.Şapiro, E.Keller, C.Skott, Y.K.Seçvik və başqaları.

*İnformasiya nəzəriyyəsi və ədəbiyyatşünaslıq*

Ədəbi-bədii və elmi informasiyanın spesifikası. İnformasiya və informativ proses anlayışları. İnformasiya – obyektiv aləmin hadisələrinin inikas olunmuş müxtəlifliyi. İnikas – müəyyən obyektlərin xüsusiyyətlərinin digərlərində onların qarşılıqlı təsiri nəticəsində dəyişilmiş formada bərpası.

İnformasiyanın biliyin gerçəkliyi aktuallaşdırmaq və onda orientasiya üçün istifadə olunan hissəsi kimi dərki. İnformasiya prosesi – obyekt, subyekt və informasiyanın dinamik tənasübü və bir informasiyadan digərinin alınması. İntellektual və informativ proses.

İnformasiya növləri: obyekt və subyekt haqqında, ifadə olunmuş və gizli, qeyd olunmuş və olunmamış, xeyirli və xeyirsiz, ikiqat və çoxqat subyektivləşmiş və s.

İnformasiya prosesinin aspektləri: semantik, sintaktik, praqmatik, aksioloji. İnformasiya vahidləri (bit) və daşıyıcıları.

Estetik informasiyanın səciyyəsi və özünəməxsusluğu. Estetik informasiya azadlıq dərəcələri məkanı kimi (A.Mol). Estetik informasiyanın fərdiliyi və "tərcüməolunmazlığı". Estetik informasiyanın ötürülməsi problemi, "əlaqə kanalı" və "küy" anlayışları. Məlumat pozuntuları; artıqlıq və qavrayış; forma meyarları və informasiya; məlumatın orijinallığı və anlaşıqlığı arasında dialektik əlaqə.

Poetik informasiyanın obrazlılığı, məcaziliyi, assosiativliyi. Mətn və kontekst, forma və məzmun, obraz və işarə, semantika və morfologiya.

*Ədəbi təhlilin xüsusi metodları*

Təsviri metod, ədəbiyyatın funksional, aksioloji, ritual-mifoloji, statistik, kompleks öyrənilməsi, ədəbiyyat tarixi və nəzəriyyəsində riyazi və kompyuter modelləri.

## İMTAHAN SUALLARI:

1. Ədəbiyyatşünaslıq humanitar elmlər sistemində.
2. Klassik estetika və ədəbiyyatşünaslığın əsas inkişaf mərhələləri.
3. Ədəbi tədqiqatın obyekti və predmeti.
4. Ədəbi tədqiqatın mövzu və metodunun seçilməsi prinsipləri.
5. XIX əsrdə ümumavropa ədəbiyyatşünaslıq məktəbləri.
6. XIX əsrin sonu – XX əsrin əvvəlində ümumavropa ədəbiyyatşünaslıq məktəbləri.
7. XX əsrin ədəbiyyatşünaslıq məktəbləri.
8. Mifoloji məktəb.
9. Müqayisəli-tarixi metod.
10. Ədəbiyyatşünaslıqda psixoanaliz.
11. Formalizm
12. Hermenevtika
13. Tarixi poetika.
14. Sosioloji ədəbiyyatşünaslıq.
15. Strukturalizm.
16. Semiotika.
17. Poststrukturalizm və dekonstruksiya.
18. Ədəbi əsərin təhlili metodologiyası.
19. Ədəbi prosesin təhlili metodologiyası.
20. Ədəbi tənqidin metodologiyası.

# ƏDƏBİYYAT


1. Abdulla Kamal. Müəllif – əsər – oxucu. B., 1985
2. Abdulla Kamal. Mifdən Yazıya və yaxud gizli Dədə Qorqud. B., 2009
3. Abdulla Kamal. Dilçiliyə səyahət və yaxud dilçi olmayanlar üçün dilçilik. B., 2010.
4. Mir Cəlal, Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. B., 1988
5. Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. B., 1958
6. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. B., 1984
7. Hacıyev A.M. Ədəbiyyatşünaslığın əsasları. B., 2005
8. Quliyeva M.H. Klassik Şərq bəlağəti və Azərbaycan ədəbiyyatı. B., 1999
9. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. B., 2008
10. Абдулла Камал. Тайный «Деде Коркуд». Б., 2006
11. Абдуллаев К.М. Евразийство в Азербайджане: проблемы и перспективы развития // Восток – Запад. Сборник научно-исследовательских работ сотрудников научно-исследовательской лаборатории «Тюрко-славянские связи». Баку: БСУ, 2004, с.3-17
12. Академические школы в русском литературоведении. М., 1979
13. Баевский В.С. Лингвистические, математические, семиотические и компьютерные модели в истории и теории литературы. М., 2001
14. Богданов А.Н., Юдкевич Л.Г. Методика литературоведческого анализа. М., 1969
15. Борев Ю. Искусство интерпретации и оценки. М., 1981
16. Бодрийяр Ж. Забыть Фуко (1977) // ppf. uni. udm. ru/bible _facultu /B/ bodr/bodr2/ bodr2 – index. Html
17. Бушмин А.С. Наука о литературе. М., 1980
18. Веселовский А.Н. Историческая поэтика. Л., 1940
19. Гришунин А.А. История русского литературоведения. М., 1980
20. Деррида Ж. Логос, 2002. О грамматологии . (1967) // www. russ/ krug/ kniga/ 200006a.html
21. Жирмунский В. Сравнительное литературоведение. Л., 1979
22. Иванов В.В. Очерки по истории семиотики в СССР. М., 1977
23. Ильин И.П. Постструктурализм, деконструктивизм, постмодернизм. М., 1996

24. Корман Б.А. Изучение текста художественного произведения. М., 1974
25. Леви-Строс К. Структурная антропология. М., 1985
26. Лотман М.Ю. В школе поэтического мастерства. М., 1978
27. Лотман М.Ю. Анализ художественного текста. Л., 1972
28. Литературный энциклопедический словарь. М., 1987
29. Методология анализа литературного произведения. М., 1988
30. Методология анализа литературного процесса. М., 1989
31. Мирзаджанзаде А.Х., Абдуллаев К.М. Лекции в Бакинском славянском университете. Б., 2003
32. Моль А. Социодинамика культуры. М., 1973
33. Неупокоева И.Г. История мировой литературы. Проблемы системного и сравнительного анализа. М., 1976.
34. Нигматуллина Ю.Г. Методология комплексного изучения художественного произведения. Казань, 1983.
35. Овсянников М.Ф. История эстетической мысли. М., 1978
36. Потебня А. Теоретическая поэтика. М., 1990
37. Рыклин М. Деконструкция и деструкция. Беседы с философами. М., 2002
38. Современное искусствознание. Методологические проблемы. М., 1994
39. Теория литературы. Б., 1997
40. Томашевский Б.В. Теория литературы. М., 1996
41. Французкая семиотика: От структурализма к постструктурализму. М., 2000
42. Фуко М. Что такое автор? (1969) // lib. ru/COPYRIGHT/ fuko. txt
43. Фурс В.Н. Контуры современной критической теории. Минск, 2002
44. Хрестоматия по теории литературы. М., 1982

# MÜNDƏRİCAT


**Metodik göstərişlər** ........ 3
**Mühazirə məşğələlərinin planı** ........ 5
**Praktik məşğələlərin mövzuları** ........ 6
**Mühazirə tezisləri** ........ 7
1. Kursun məqsəd və vəzifələri. Humanitar elmlər sistemində ədəbiyyatşünaslıq ........ 7
2. Ədəbiyyatşünaslıq fəaliyyəti ........ 8
3. Klassik estetika və ədəbiyyatşünaslığın əsas inkişaf mərhələləri ........ 9
4. XIX əsr ümumavropa ədəbiyyatşünaslıq məktəbləri ........ 10
*Mifoloji məktəb* ........ 10
*Bioqrafik metod* ........ 10
*Mədəni-tarixi məktəb* ........ 11
*Antropoloji məktəb* ........ 11
*Müqayisəli-tarixi metod (komparativizm)* ........ *12*
*Psixoloji məktəb* ........ *13*
5. XIX əsrin sonu – XX əsrin əvvəlində ədəbiyyatşünaslıq məktəbləri ........ 14
*Mənəvi-tarixi məktəb* ........ 14
*Ədəbiyyatşünaslıqda psixoanaliz* ........ 14
*Formalizm* ........ 15
*Tarixi poetika* ........ 16
*Hermenevtika* ........ 16
6. XX əsr ədəbiyyatşünaslıq məktəbləri ........ 17
*Sosioloji ədəbiyyatşünaslıq* ........ 17
*Strukturalizm* ........ 18
*Semiotika* ........ 20
*Poststrukturalizm və dekonstruksiya* ........ 21
*Reseptiv tənqid* ........ 22
*Neomarksizm* ........ 22
*Feminist tənqid* ........ 23
*İnformasiya nəzəriyyəsi və ədəbiyyatşünaslıq* ........ 25
*Ədəbi təhlilin xüsusi metodları* ........ 25
**İmtahan sualları** ........ 26

Чапа имзаланыб: 05.05.2011.
Формат: 60х84 1/16. Гарнитур: Тимес.
Щяъми:  2 с.ч.в. Тираж: 100
Сифариш № 119. Гиймяти мцгавиля иля.

**“Мцтяръим” Няшрийййат-Полиграфийа Мяркязи**
Бакы, Рясул Рза кцч., 125
Тел./факс 596 21 44
*е-маил:* *мутаржим@маил.ру*